Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Söz sənətkarlığı zirvəsinin fatehi

**Mir Cəlal Paşayevin 110 illik yubileyi münasibətilə mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Söz sənətkarlığı zirvəsinin fatehi:** Mir Cəlal Paşayevin 110 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F.Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. – 48 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Nadir istedad sahibləri, klassik sənətkarlar öz yaradıcı təfəkkürləri ilə əsrlərin qovğalarından sıyrılaraq həmişə gələcəyə üz tutublar. Belə şəxsiyyətlər həqiqətən xoşbəxtdirlər. Çünki onların yaratdıqları həmişə yaşamaqda davam edir. Ədəbiyyatımızın əbədi ömür sahibləri çoxdur. Füzulidən üzü bəri neçə şairin, nasirin, bəstəkarın, rəssamın, memarın adını çəkmək olar. Bu sahə müxtəlifliyində nəsrimizin yeri ayrıca bir mövzudur. Azərbaycan ədəbiyyatının elə nümayəndələri var ki, illər ötdükcə ədəbi ərməğanlarının ömrü daha da uzun olur. Onların yazdıqları öz dövrlərinin ab-havasından çox gələcəklə bağlı, xoş niyyətlərdən ibarət olduğundan əsərlərindəki ideyalar, toxunduqları mövzular bütün zamanlar üçün əhəmiyyət kəsb edir. Arzu və istəkləri həmişə təzə-tər görünür. Həqiqətən də sənətin və insanlığın zirvəsində dayananlar heç vaxt unudulmurlar. Əsərlərini həmişə sevə-sevə oxuduğumuz Mir Cəlal Paşayev kimi. Kitabxanaçılara təqdim etdiyimiz metodik vəsaitdə əsas məqsədimiz XX əsrdə yaşayıb-yaratmış görkəmli alim, ədəbiyyat və təhsil xadimi, yazıçı, professor Mir Cəlal Paşayevin yaradıcılığı ilə onları daha da dərindən tanış etməkdir. Yazıçının yubileyi münasibətilə bir sıra mədəniyyət ocaqlarında il ərzində bir sıra silsilə tədbirlər keçirilməsi nəzərdə tutulmuşdur. Yaxşı olar ki, hər bir kitabxanaçı vəsaitdə verilmiş müxtəlif tədbir formalarından istifadə etməklə görkəmli ədib, pedaqoq, ictimai xadim M.C.Paşayevi öz oxucularına tanıtsın. Metodik vəsait iki bölmədən ibarətdir: I Bölmə M.C.Paşayevin həyat və yaradıcılığı haqqında məlumat, II Bölmədə isə yazıçının yubileyi ilə bağlı keçiriləcək tədbirlərdən söhbət açılır. II bölmədə verilmiş tədbir formaları uşaq və gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsində xüsusi əhəmiyyət kəsb edəcəkdir. Vəsaitin sonunda verilmiş əlavələrdən kitab sərgilərində istifadə etmək olar. Metodik vəsaitdən uşaq, məktəb, gimnaziya, lisey, kollec, kütləvi və s. kitabxanaların kitabxanaçıları istifadə edə bilər.

## Həyat və yaradıcılığı

Mir Cəlal Paşayev 1908-ci ildə İranın Ərdəbil vilayətinin Əndəbil kəndində doğulmuşdur. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığı burada keçmişdir. 1918-ci ildə atası vəfat etmiş, böyük qardaşının himayəsində yaşamışdır. 1918-1919-cu illərdə xeyriyyə cəmiyyətinin köməyi ilə ibtidai təhsil almışdır. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darülmüəlliminə daxil olmuşdur (1924-28). Tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri seçilmişdir (1926-1927). Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində (1930-1932), Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik etmişdir (1932-1935). "Füzulinin poetikası" mövzusunda namizədlik dissertasiyası (1940), "Azərbaycanda ədəbi məktəblər" mövzusunda doktorluq dissertasiyası (1947) müdafiə etmişdir. Onun ədəbiyyat nəzəriyyəsinə dair araşdırmaları, xüsusilə məşhur "Ədəbiyyatşünaslığın əsasları" dərsliyi Azərbaycan filoloji mühitində diqqətəlayiq yer tutur. Ədibin "Klassik irs və müasirləri"mizə dair məqalələri, monoqrafik tədqiqatları, "Azərbaycanda ədəbi məktəblər" mövzusunda yazdığı doktorluq dissertasiyası, "Füzuli sənətkarlığı", "Cəlil Məmmədquluzadə realizmi haqqında" və sair bu kimi əsərləri onun ədəbi-nəzəri düşüncə ilə ardıcıl və sistemli şəkildə məşğul olmasını təsdiqləyən çox ciddi faktlardır. Yazıçı 1928-ci ildən ədəbi fəaliyyətə başlamışdır. "Kommunist" qəzetində şöbə müdiri, "Gənc işçi" qəzetində məsul katib, həm də Azərbaycan Elmlər Akademiyası Nizami ad. Ədəbiyyat İnstitutunda elmi işçi olmuşdur (1932-1935). Azərbaycan Dövlət Universitetində dosent, 1948-ci ildən professor kimi fəaliyət göstərmişdir. Azərbaycan ədəbiyyatı kafedrasının müdiri olmuşdur (1961-ci ildən). Sovet yazıçıları briqadası tərkibində Ağ dəniz – Baltik kanalında yaradıcılıq ezamiyyətində (1935), Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə (1940, 1950, 1960),

SSRİ yazıçılarının II, III, IV qurultaylarında (1954, 1959, 1967) olmuşdur. Əzablı ömür qisməti dünyaya gəldiyi ilk illərdən onu izləməyə başlasa da, Ulu Tanrının mərhəməti sayəsində Mir Cəlal Paşayev çox çətinliklərə sinə gərərək, öz yolu ilə inadla, inamla irəliləyə bilib.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal, elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. Sözün gücünə güvənib, onun böyüklüyünə baş əyən sənətkarın könüllərə yanğı salmış "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi ədəbiyyat tariximizin səhifələrində müəllifinə əbədiyaşarlıq qazandırmışdır. Yuxusuz gecələrinin, gərgin zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qızıl nüsxələrindəndir. Ali təhsilimizin beşiyi sayılan Bakı Dövlət Universitetinin sevimli müəllimi, nüfuzlu professoru kimi xatirələrdə daim yaşayacaq. Mir Cəlal Paşayev həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: "Həyatımda yaratdığım ən böyük əsər mənim ailəmdir". XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə görünən Mir Cəlal, az sonra istedadlı və orijinal yaradıcılıq üslubu olan yazıçı kimi tanınıb. Əlli illik yaradıcılıq fəaliyyəti dövründə o, görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutub. Qəti əminliklə demək olar ki, təkcə "Bir gəncin manifesti" əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanıb. Bu əsər çapdan çıxanda onun heç 30 yaşı yox idi. 1928-ci ildə mətbuatda ilk şeirləri ("Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir") çap olunub. Lakin o, bundan sonra, daha doğrusu, 1930-cu ildən etibarən hekayələr yazıb. O dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf",

"Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" və s. hekayələrini çap etdirib. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerklər və novellalar kitabları çap olunub.

Mir Cəlalın "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır" romanlarında keçmiş, "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər" romanlarında isə müasir həyat lövhələrinin bədii təsviri ustalıqla qələmə alınıb. Yazıçının "İnsanlıq fəlsəfəsi" (1961) kitabında toplanmış hekayələri böyük tərbiyəvi-əxlaqi əhəmiyyətə malikdir. "İnsanlıq fəlsəfəsi", "Subaylıq fəlsəfəsi", "Təzə toyun nəzakət qaydaları", "Vicdan mühakiməsi", "Vicdan əzabı", "Hesab dostları", "Təsadüf, ya zərurət", "Qocaların uşaq söhbəti" və digər hekayələrində isə real həyat lövhələri, fəlsəfi düşüncələr çox böyük ustalıqla əks olunub. Mir Cəlalın bədii yaradıcılıq nümunələri dəfələrlə nəşr olunub. "Seçilmiş əsərləri" (2 clddə, 1956-57), "Seçilmiş əsərləri" (4 cilddə, 1967-68), "Seçilmiş əsərləri" (2 cilddə, 1986-87), hekayə və povestlərdən ibarət "Şəfəqdən qalxanlar" (1972), "Dağlar dilə gəldi" (1978), "Ləyaqət", hekayələrdən ibarət "Bostan oğrusu" (1937), "Gözün aydın" (1939), "Vətən" (1944), "Həyat hekayələri" (1945), "Sadə hekayələr" (1955), "Xatirə hekayələri" (1962), "Gülbəsləyən qız" (1965), "Silah qardaşları" (1974) və s. bu qəbildəndir. Mir Cəlal Paşayevin nəşr olunmuş altı romanı oxuculara məlumdur. "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır" romanlarında keçmiş, "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər" romanlarında isə müasir həyat lövhələrinin bədii təsviri ustalıqla qələmə alınmışdır. Mirzə Cəlili "Yeni realist ədəbi məktəbin banisi", Əbdürrəhim bəy Haqverdiyevi isə "Yeriyən Azərbaycan" adlandıran Mir Cəlal Paşayev özü canlı ədəbiyyat idi. Professor Qara Namazova məxsus fikirdir ki, Mir Cəlal müəllim sadə hekayələrdə sadə adamların dili ilə gizli mətləblərə toxunurdu. Onda Mirzə Cəlilə xas olan "adi əhvalatlarda böyük həqiqətləri" açmaq məharəti var idi. Ümumiyyətlə, indiyədək yazıçının 70-dən çox kitabı

nəşr olunub. XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan Mir Cəlal Paşayev çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də müstəsna və özünəməxsus yer tutub. Filologiya təhsili alan tələbələrin I kursda istifadə etdikləri "Ədəbiyyatşünaslığın əsasları" dərsliyi sonralar da mütəxəssislərin stolüstü kitabı olub. Mir Cəlal müəllim 1936-cı ildən ömrünün sonunadək dərs dediyi Bakı Dövlət Universitetinin auditoriyalarında bu fəndən mühazirələr oxuyub. Elmi fəaliyyətini davam etdirən gənc Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alıb. Füzuli poeziyasının qüdrətinə heyran olan, ümumiyyətlə, klassik ədəbiyyata qəlbən bağlı olan Mir Cəlal Paşayev 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək və əvvəlki əsərini təkmilləşdirərək "Füzuli sənətkarlığı" adlı monoqrafiyasını nəşr etdirib. Professor Qara Namazov deyir ki, Mir Cəlalın "Füzuli sənətkarlığı" monoqrafiyası Füzuli ədəbi irsini öyrənmək, mənimsəmək və dərk etmək üçün elmi açardır. Əsər 1994-cü ildə təkrar nəşr olunub. "Azərbaycanda ədəbi məktəblər" (1905-1917) əsərində isə Mir Cəlal Paşayev XX əsrin əvvəllərində inqilabi-demokratik meyillərlə əlaqədar baş verən ictimai-siyasi hadisələr kontekstində Azərbaycanda realizm, romantizm ədəbi məktəbləri, maarifçi-didaktik yazıçılar və xırda məişət dramları haqqında müfəssəl tədqiqatlar aparmış, əhatəli elmi nəticələr, nailiyyətlər əldə etmişdir. Mir Cəlal Paşayevin tanınmış tədqiqatçı Firudin Hüseynovla birgə yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" əsəri 40 ilə yaxındır ki, ali məktəblərin dərs vəsaitidir. Bu dərslikdə XX əsrin böyük ədəbi şəxsiyyətləri, onların yaradıcılığı, ədəbi mühitə gətirdiyi yeniliklər haqqında əhatəli elmi fikirlər əks olunub. Mir Cəlal Paşayev böyük şəxsiyyətlərin həyat və yaradıcılıqlarını, dövrün ictimai-siyasi, ədəbi-mədəni mühitini öyrənməklə, tədqiq etməklə özü də uca zirvələrə qalxıb, şəxsiyyət kimi müdrikləşib.

Əməkdar elm xadimi Mir Cəlal Paşayev XX əsr ədəbiyyat, ədəbiyyatşünaslıq tarixində elə bir iz açmışdır ki, bu, XXI əsrin də ədəbi-elmi zirvəsində görünəcək. Müdriklik, saflıq, vicdan, ləyaqət tarix boyu mənəviyyat zirvəsində dayandığı kimi. 1978-ci il sentyabrın 28-də əbədiyyətə qovuşan, böyük şəxsiyyət kimi tarixləşmiş, gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir Cəlal Paşayevin xatirəsi daim qəlblərdə yaşayacaq, ədəbiyyatımızın, ədəbiyyatşünaslığımızın əbədi, sevilən, yaddaşlara həkk olunmuş mövzusu olacaq. Bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da bu böyük ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri çap olunaraq maraqla oxunur. XX əsr Azərbaycan ədəbiyyatında, elmində müstəsna xidmətlər göstərən Mir Cəlal Paşayevin 100 illiyinin YUNESKO səviyyəsində qeyd olunması, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən önəmin və dəyərin təzahürüdür. 2008-2009-cu illərdə YUNESKO-nun dünya miqyaslı hadisələrin və şəxsiyyətlərin yubileylərinin qeyd olunması ilə bağlı qərarına Mir Cəlal Paşayevin də adının daxil edilməsi, həm də Azərbaycan-YUNESKO əməkdaşlığının inkişafının bariz nümunəsidir. İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, onun həm də xeyirxahlığı, böyük və əlçatmaz müəllimliyi, bəşəri insanlığı heyranlıqla qarşılanır və əsl örnək kimi sevilə-sevilə qəlblərdə özünə ucalıq, əlçatmazlıq heykəli qurur. Bu zirvədəki yerini heç vaxt itirməyəcək və onun mərhəmət sevgisi dünya durduqca yaşayacaq.

Yazıçı "Qafqazın müdafiəsinə görə", "Əmək igidliyinə görə" medalları, "1941-45-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyinə görə" (1948), "Qırmızı əmək bayrağı" (1967), "Oktyabr inqilabı" (1978) və iki dəfə "Şərəf nişanı" (1950, 1958) ordenləri, iki dəfə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı və "Qabaqcıl maarif xadimi" nişanı ilə təltif olunmuşdur. Bakı küçələrindən birinə onun adı verilmişdir.

## Yubiley tədbirlərinin keçirilməsi

Mir Cəlal Paşayevin 110 illik yubileyi münasibətlə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanalarda bununla əlaqədar maraqlı tədbirlər keçirmək olar. Tədbiri keçirmək üçün kitabxana məktəblərlə, ali təhsil ocaqları ilə əməkdaşlıq etməlidir. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə yazıçının kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur. Sərgiyə kitablarla yanaşı yazıçı haqqında dövri mətbuatda çap olunan məqalələrin kartotekasını, yazıçı haqqında çəkilmiş sənədli və bədii filmlərin video-yazılarını, kaset və disklərini də əlavə etmək olar. Təşkil edilmiş yubiley sərgisinin qarşısında silsilə tədbirlər, söhbətlər, biblioqrafik icmallar keçirmək planlaşdırılmalıdır. Sərgini müxtəlif başlıqlarla adlandırmaq olar: *"Mir Cəlal – 110 il", "Böyük sənət manifestli yazıçı", "Unudulmaz sənətkar", "İllərin ucalığında", "Görkəmli nasir – Mir Cəlal", "Söz sənətkarlığı zirvəsinin fatehi", "Gənc nəslə töhfələrim", "Müasir Füzulişünaslığın banisi", "Əsrlərin romanı – nəsillərin manifesti" və s.* Sərgidə sitatlardan əlavə yazıçının həyat və yaradıcılığının əsas tarixlərinin qeyd olunduğu siyahını vermək olar ki, bu da sərgini daha dolğun edər. İlk növbədə ədibin irsinin təbliği ilə bağlı yazıçının uşaq və gənclər üçün yazdığı əsərlərin sərgisini tərtib edə bilərik. Sərgidə ədibin portreti, kitabları, görkəmli şəxsiyyətlərin onun haqqında dedikləri kəlamlardan da istifadə edə bilərik. Sərgi üçün hazırlanacaq stendin nümunəsini veririk:1)Başlıq: Mir Cəlal – 110 il" ; 2)Portreti; 3) Görkəmli elm və incəsənət xadimləri Mir Cəlal haqqında; 4)Yarım başlıq – "Ədibdən gənclərə"; M.Cəlal – "Dirilən adam"; M. Cəlal – "Bir gəncin manifesti"; M. Cəlal – "Yaşıdlar"; M. Cəlal – "Dağlar dilə gəldi"; M. Cəlal – "Ləyaqət" və s.

# Kitab sərgisi




































## Görkəmli şəxsiyyətlərin Mir Cəlal Paşayev haqqında söylədikləri fikirlər:

Mir Cəlal yaradıcılığının ən üstün cəhətlərindən biri də onun təmiz, şaqraq və büllur dili idi. Onun dili xalq danışıq tərzinə uyğun, son dərəcə canlı, təbii ifadələrlə zəngin və bədii dildir. Həyat həqiqətinə sadiqlik ədibin həqiqi vətəndaşlıq amalına çevrilmişdi.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

Mir Cəlalın "Füzuli sənətkarlığı" monoqrafiyası Füzuli ədəbi irsini öyrənmək, mənimsəmək və dərk etmək üçün elmi açardır.

**Qara Namazov,**
*professor*

Mir Cəlal müəllim həqiqətən peyğəmbər təbiətli insan idi. Onun zəkası, ürəyi, ailəsi bir harmoniya təşkil edirdi. Sadə yaşayırdı, amma alicənab idi. Asta addımları var idi, amma çox şax yeriyirdi. Çox danışmazdı, amma dediyi söz yadda qalırdı Mir Cəlal Paşayev yaratdığı əsərləri ilə Azərbaycan ədəbiyyatının əbədiyaşar siması idi.

**Nəriman Həsənzadə,**
*Xalq şairi*

Alim Mir Cəlal Paşayevin elmi əsərlərinin dili, üslubu öz qələm yoldaşlarının heç birinin dilinə, üslubuna oxşamır. Onun əsərlərində nə publisistika var, nə də qəliblənmiş elmi terminli tədqiqat dili. O, elmi əsərlərini yığcamlıq və şirinliklə, amma dərin və axıcı elmi mühakimə tutumu olan dillə yazardı. Bu yazı indi də təkraredilməz örnəkdir.

**Pənah Xəlilov,**
*ədəbiyyatşünas, tənqidçi*

Ədəbiyyatşünas Mir Cəlal mahir bir hekayə ustasıdır, onun hekayələri yığcam və ibrətlidir. Yazıçı hər bir hekayədə müəyyən ibrətli bir hadisədən bəhs edir və tərbiyəvi nəticə çıxarmağı oxucunun öz öhdəsinə buraxır.

**Məmməd Arif,**
*professor*

Ədibin əsərlərində klassik ədəbiyyatımızın mütərəqqi ənənələri ilə yanaşı, xalq yaradıcılığının bir sıra işıqlı ünsürləri birləşir, qaynayıb-qovuşur və yeni keyfiyyət kəsb edir.

**Qulu Xəlilov,**
*Əməkdar elm xadimi*

Ədibi bir alim, ədəbiyyatşünas kimi başqalarından fərqləndirən mühüm cəhət təkcə elmi təfəkkürü deyil, həm də zəngin mənəviyyatı və sadəliyi idi.

**Firudin Hüseynov,**
*professor*

Bədii yaradıcılığında olduğu kimi elmi əsərlərində də Mir Cəlal həmişə aydın bir məqsəd izləmişdir. O, həmişə xalqın mənafeyinə xidmət edən ədəbiyyatdan, yazıçıdan yazıb, ədəbiyyatımızın böyük ənənələrinə sadiq olan sənətə maraq göstərib, müasir ideyalı ədəbiyyat uğrunda mübarizə aparıb. Buna görə də ədib bir nəzəriyyəçi, bir tənqidçi kimi büdrəməyib, çaşmayıb, məqsəd aydınlığı ona tədqiqat mövzuları seçməkdə, aydın fikirlər söyləməkdə kömək edib.

**Kamal Talıbzadə,**
*professor*

Mir Cəlal Paşayev respublikamızın hüdudlarından kənarda da xalqımızı layiqincə təmsil etmiş, təhsilimizin, elmimizin, ədəbiyyatımızın, mədəniyyətimizin etibarlı hamisi, alovlu təbliğatçısı kimi çətin missiya daşımışdır. O, Azərbaycan

ədəbiyyatında roman janrına da yeni nəfəs gətirmiş, bu sahədə özünəməxsus məktəb yaratmışdır.

**Hüseynbala Mirələmov,**
*yazıçı*

Ana torpağa, onun gözəl, məğrur, sadə insanlarına dərin və tükənməz məhəbbət, bu insanların taleyi ilə üzvi bağlılıq – Mir Cəlal nəsrinə daxili hərarət verən, onu qanadlandıran əsas amillərdir.

**Əhəd Hüseynov,**
*ədəbiyyatşünas, tənqidçi*

Mir Cəlal zəngin irs qoyub getdi. Elə bir irs ki, öyrənməli, nümunə götürməli, davam və inkişaf etdirməli cəhətləri çoxdur. Elə bir irs ki, onda dərin realizm gücünə malik sosial kəsərli bədii nümunələr, klassik və müasir mənəvi sərvətlərə, ədəbiyyat tarixi və nəzəriyyəsinə dair maraqlı tədqiqlər, məqalələr, fikirlər mövcuddur.

**Yaqub İsmayılov,**
*ədəbiyyatşünas*

Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz avtobioqrafiyasının bir hissəsi kimi görünür, canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir; kitabı oxuyub örtdükdən sonra adama belə gəlir ki, özünün dünənki həyatının həyəcan və sevinclərini sənə nağıl edən qızğın və həyəcanlı bir adamla bir neçə saat maraqlı söhbət etmisən.

**Yakov Rıkaçev,**
*ədəbiyyatşünas*

Kitabxanada sevilən tədbirlərdən biri də kitabxanaçının sərgi ətrafında oxucularla keçirdiyi söhbətdir. Kitabxanaçı bu söhbətə əvvəlcədən hazırlaşmalı, yazıçının yaradıcılığı ilə yaxından tanış olmalıdır. Mir Cəlalın yuxarı yaş qrup oxucular üçün yazdığı hekayə və povestlərin (“Ləyaqət”, “Bostan oğrusu” “Bir

gəncin manifesti”, “Dirilən adam”, “Dağlar dilə gəldi”, “Möhür və məhəbbət”, “Bakı səhərləri”, “Ərəb qardaş”, “Yaşıdlar” və s.) məzmunu haqqında kitabxanaçı tərəfindən oxuculara məlumat verilə bilər.

**Kitabxanaçı:** Mir Cəlal satirik hekayələrində klassik nəsrimizdən, Cəlil Məmmədquluzadənin, Ə.Haqverdiyevin ədəbi irsindən yaradıcı şəkildə istifadə etmişdir. Mir Cəlalın hekayələrindəki təhkiyə üsulu bəzən Ə.Haqverdiyevi xatırladır. Dilin sadəliyi, dəqiqliyi, əlvan, rəngarəng xalq ifadələrinin bolluğu cəhətdən, dialoqları qurmaq, bədii suallardan, təkrarlardan, təsvir və ifadə vasitələrindən istifadə etmək cəhətdən Mir Cəlal klassik nasirlərimizdən çox şey öyrənmişdir. Bəli, Mir Cəlal Paşayev gözəl hekayələr ustadı idi. Mir Cəlal müəllimin yazdığı “Dirilən adam”, “Bir gəncin manifesti”, “Açıq kitab”, “Yaşıdlarım”, “Təzə şəhər”, “Yolumuz hayanadır” romanları, bir çox oçerklərin toplandığı “Sağlam yollarda”, “Yeni kəndin adamları”, “Gözün aydın” adlı kitabları, “Boy” adlı hekayələr toplusu hər bir oxucunun şüurunda dərin izlər buraxmışdır. Onun qələmə aldığı “Qaymaq”, “Ayaz”, “Şəxsi məsələ”, “Qonaqpərəst”, “Müalicə”, “Dost görüşü”, “Vicdan əzabı”, “Tamaşa”, “Nənənin hünəri”, “Badamın ləzzəti”, “Gözün aydın”, “Hikmətdən xəbər”, “Oğul”, “Əsgər oğlu”, “Nazik mətləb”, İnsanlıq fəlsəfəsi, “Kəmtərovlar ailəsi”, “Elçilər qayıtdı”, “İki hakim”, “Şəxsi məsələ”, “Sara”, “Subaylıq fəlsəfəsi”, “Pərzad”, “Dəzgaz qızı” hekayələrində olan hadisələr ətraflı olaraq zəmanəmizlə səslənir. Onun hekayələrində həyatın hər iki qütbü həmişə özünü göstərirdi. Müəllifin "Ərik ağacı", "Şapalaq", "Xarici naxoşluq", "Plovdan sonra", "İclas qurusu", "Əmzik", "Yamanlığa yaxşılıq", "Ad günü", "Dərsini yaz", "Təzə toyun nəzakət qaydaları" adlı hekayələrində toxunulan məsələlər bu gün üçün də aktualdır. Yarım əsr bundan əvvəl yazılmış "Anket Anketov" adlı hekayəsində müəllifin incə bir üsulla, yumorla, lakin kəskinliklə ifşaya çəkdiyi bir məsələ bu günün oxucusu üçün də maraqlıdır.

Hamamlar trestinə rəis təyin olunan Anketov işə götürdüyü adamlardan min cür "spravka"lar tələb edir. Az qala qəbir evində də yoxlama aparmaq istəyir ki, görsün işçinin babası pinəçi olub, yoxsa varlı-karlı?! Mir Cəlalın hekayələrində avamlıq, cahillik, nadanlıq, yaramazlıq müntəzəm tənqid edilib. Məişət planında işlənilmiş yumoristik hekayələrdən biri də "Bostan oğrusu"dur. Bu hekayə özünün bitkinliyi, xarakterlərinin dolğunluğu cəhətdən Mir Cəlal Paşayevin 30-cu illərdəki hekayələrindən xeyli fərqlənir. Burada təsvir olunan bostan oğruları kimlərdir? Doğma qardaşlar!? Əgər müəllif maddi ehtiyac ucundan oğurluq etməyə məcbur olan bir nəfərin acı taleyini təsvir etməyi qarşısına məqsəd qoysaydı, qəhrəmanın vəziyyəti ancaq ciddi planda yazılmış bir hekayənin həyat materialı olardı və bəlkə də qəhrəmana qarşı hüsn-rəğbət doğurardı. Lakin oxucu gözləmədiyi halda Durmuşun öz qardaşı Kərbəlayı Tapdığın bağına oğurluğa getdiyini görür və gülməkdən özünü saxlaya bilmir. Buradakı gülüş təsvir obyekti olan xarakter və predmetin daxili imkanları ilə zahiri hərəkət və görkəmi arasındakı uyğunsuzluqdan doğmuşdur. Bir başqası üçün az-çox təbii görünə bilən bir iş – doğma qardaşlar tərəfindən icra edilərkən gülüş doğurur. Lakin qardaşların qarşılıqlı oğurluğunu təkcə tamahkarlıq əlaməti kimi qiymətləndirmək doğru olmazdı. Mir Cəlal, Məşədi Durmuşun öz taleyindən narazılığını və bu səbəbdən də oğurluq etməsini əsaslandırmaq üçün onun hərəkətlərini ata-baba mirası ilə bağlayır. Məlum olur ki, Kərbalayı Tapdıq rüşvət yolu ilə bu mirasın çox hissəsinə sahib olmuşdur. Buna görə də Durmuş: "atadan mənə çatı da düşmədi, boğazıma salım" deyə narazılıq edir. Durmuşun bu sözlərində mirasdan məhrum edilmiş olan adamın kin və qəzəbi təbii ifadə olunmuşdur. Kərbalayı Tapdığın varlanmaq ehtirasını təsəvvür etmək üçün onun oğurluğa getdiyi gecəni xatirimizə gətirək: "Kərbalayı Tapdığı yuxudan oyatdılar. Qaranlıq, sakitlik, yalqızlıq idi. Nağıllarda söylənən tilsimli gecələr Tapdığın yadına düşdü. Göyə baxdı. Səliqəsizcə səpilmiş ulduzlar ona

qızıl onluqları xatırlatdı. Nə ola, bu qızıllar qopa, qızıl yağışı yağa idi. Nə qapaqap olardı, fələk! Qıllı papağımı başıma basıb, bir yüzcə dənə yığsaydım bir təhər olardım. Şəhərin göbəyində bir mülk alardım, ya da Namazlıların bağını ələ keçirərdim, ildə on beş min manatlıq Təbriz üzümü satardım. Onda Durmuş da paxıllığından çatlayardı... Qoy onda mənimlə ha bəhsə girişsin...” Bu daxili monoloq həm obrazın tamahkarlığı, həm qəsbkarlıq niyyəti, həm də doğma qardaşına amansızlığı haqqında aydın təsəvvür verir. “Bostan oğrusu”nu lətifəyə yaxınlaşdıran ünsürlər olduğundan bu hekayəni ənənəvi xalq lətifəsi hesab edənlər də vardır. Lakin unutmaq olmaz ki, lətifənin novellaya keçidində əsas şərt əsərin aydın perspektivi ilə onda əyləncədən, didaktikadan daha çox siyasi kəskinliyin güclənməsilə bağlıdır. “Bostan oğrusu”nda da gülüş zahiri, ötəri deyil, paxıllığa, tamahkarlığa qarşı dərin bir nifrət hissilə bağlıdır. Mir Cəlalın yaradıcılığında sovet əsgərinin təsvirini hələ Böyük Vətən müharibəsindən əvvəl yazdığı “Səfər” və “Vətən oğlu” hekayələrində görürük. Mir Cəlalın müharibə dövründə yazdığı hekayələrdə vətənpərvərlik əsas amillərdəndir. Bilavasitə döyüş səhnələrinə həsr olunmuş hekayələrdə sədaqət və fədakarlıq döyüşçüləri birləşdirən ən nəcib sifətlərdir. “Qardaş qanı” hekayəsində yaralı Bəhramın qanlı silahı hekayə qəhrəmanı üçün bir sədaqət timsalıdır. O deyir ki: “Mən səngərlərdə silahı bağrıma basanda qardaşımdan əziz olan Bəhramı yanımda hiss edirdim. Silah səslənəndə Bəhramın dindiyini duyurdum. Silaha qulluq edəndə Bəhrama qulluq edirmiş kimi həzz alırdım”. Bəhramın tüfənginin qundağındakı qan da sadiq dostları düşməndən intiqam almağa çağırır. Mir Cəlalın sırf çağırış xarakterində olan hekayələrinin sujeti daha sadədir. Belə hekayələrdə ədib əhvalatın konkret təsvirindən daha çox müharibənin törətdiyi rəzalətlər haqqında ümumi şəkildə danışır. Lakin bu ümumi təəssüratın özündə də qüvvətli qəzəb, intiqam hissi hakimdir. “Anaların üsyanı” hekayəsində sevimli balası düşmənlər tərəfindən öldürülmüş

Mariyanın fəryadları faşizmin fəlakətlərini görmüş minlərlə anaların dərdidir. Qəzəbdən göz yaşı qurumuş ananın hıçqırıqları sanki milyonlara acı həqiqətdən danışan təmiz bir vicdanın səsi idi. Bu səs Mir Cəlalın bədii nəsri 31 milyonları ayağa qaldırır; "Dünyanın bütün qadınları, bəşəriyyəti bəsləyib böyüdənlər, insanlığın dayələri, dahilərin, alimlərin, filosofların, şairlərin anaları, köksü saf, təmiz hisslər yatağı olan qadınlar böyükdən-kiçiyə, şərqdən-qərbə, cənubdan-şimala hamısı ayağa qalxmışdı". Mir Cəlal Paşayevin "Od içindən çıxanlar" başlığı altında dərc etdiyi hekayələrində döyüş cəbhələrindən qələbə ilə qayıdan, qurmaq-yaratmaq eşqilə, coşğun bir ehtirasla işə girişən qəhrəmanlardan danışır. Bahar günəşinin əlvan şüaları bir damcı suda əks olunduğu kimi, bu hekayələrdə də sovet xalqının ümumdünya tarixi qələbələrinin müəyyən bir hissəsi öz bədii ifadəsini tapmışdır. "Möhür və məhəbbət" hekayəsinin icmalına kitabxanaçı hekayədə verilmiş bir şeir parçası ilə başlaya bilər:

"Birisi kök, deyərsən pərvəridir.
Birisi bir sümükdür, bir dəridir.
Birinin yağar dövlət başından.
Birisi görməyib bir pul yaşından.

**Kitabxanaçı:** Əziz, oxucular bu hekayədə yazıçı bir-birini sevən Fira və İsmayıl adlı iki gəncdən söhbət açır. İsmayıl Firavan xanımın oğludur. O, ali təhsilli, işli-güclü, evli-eşikli, zirək bir oğlandır. Onun Fira adlı bir gözəl nişanlısı var. Baxmayaraq ki, gənclər bir-birini sevir, amma ailə qura bilmirlər. Toyları getdikcə ləngiyir. Bunu görən qonum-qonşu, qohum-əqrəba hamısı bu gənclərin toyunun nə vaxt baş tutacağı ilə maraqlanırlar. Toyun ləngimək səbəbini gənclərin özündən başqa heç kim bilmir. Səbəb isə diplomdur. Qız ali məktəbi oxuyub bitirmişdir. Lakin İsmayıl tələb edirdi ki, Fira

aspiranturaya qəbul olsun. Və buna görə də onların arasındakı mübahisələr bitmək bilmir". Kitabxanaçı icmalı bu yerində saxlayıb oxuculara müraciət edir. "Hörmətli, oxucular, əgər siz Fira ilə İsmayılın başı bəlalı məhəbbətinin sonunun nə ilə bitəcəyini bilmək istəyirsinizsə, bu hekayəni oxuyun".

*Kitabxanada yubilyarın yaradıcılığını oxuculara tanıdan tədbirlərdən biri də kitab icmallarıdır.*




**İcmal.** Kitabxanada Mir Cəlal Paşayevin bədii irsini oxuculara daha yaxından tanıtmaq məqsədilə Ramiz Dənizin "Qəlblərdə yaşayan Mir Cəlal" kitabının icmalını da keçirmək olar. Bunun üçün kitabxanaçı bir neçə gün əvvəl kitabla ətraflı tanış olur. Sonra isə oxucularla kitab haqqında öz təəssüratlarını bölüşür.

**Kitabxanaçı:** Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatında xüsusi bir səhifədir. Əgər belə olmasaydı, V. Şekspir kimi bir şəxsiyyət dünyanı təəccübdə qoyan "Hamlet", "Kral Lir" və başqa əsərlərini özündən sonra xalqına miras qoymaz, şərq ədəbiyyatında Nizami kimi bir korifey, düha sahibini hörmətlə anmaz, ondan bəhrələnməz, ona olan hörmətini yazdığı əsərlərində bildirməzdi. Azərbaycan ədəbiyyatının hər bir nümayəndəsi heç kəslə müqayisə edilə bilmir. Onun bütün dövrlərdə oxucular üçün qatbaqat açılan səhifələrində bir-birinə bənzəməyən ideya, anlam, idrak fəlsəfəsi var və bu, bəşəriyyət yaşadıqca yaşayacaq. Elm və ədəbi aləmdə öz yolu olan və bu yolla inamla irəliləyən gənc tədqiqatçı Ramiz Dənizin Azərbaycan ədəbiyyatı və mədəniyyətində bənzərsiz sənətkar, Əməkdar elm xadimi, filologiya elmlər doktoru, professor Mir Cəlal Paşayevin həyat fəaliyyətinə həsr olunmuş "Qəlblərdə yaşayan Mir Cəlal" adlı

elmi-publisistik əsəri aktuallığı ilə fərqlənir. “Qəblərdə yaşayan Mir Cəlal” adlı əsərdə bir obraz kimi Mir Cəlalın təhsil illərindən başlayaraq, ömrünün son günlərinədək xarakter dəyişikliyi oxucuya çatdırılır. Tədqiqat əsərində diqqəti cəlb edən məqamlardan biri də hər paraqrafı adlandırarkən dahi şəxsiyyətlərin dəyərli fıkirlərindən sitat gətirməsi, həmin fikirlərlə öz dünyagörüşü arasında olan uyğunluğu oxucuya çatdırması, onu dönə-dönə düşündürməsidir. Mir Cəlalın yazıçı kimi əsərlərinin təsirini, fəlsəfi fıkirlərlə zəngin olduğunu göstərən Ramiz Dəniz (Qasımov) ölməz fılosofların adını çəkir, öz fıkirlərini onların əsərlərinə istinadən sübut etməyə çalışdığını göstərir. Ramiz Dəniz Mir Cəlal Paşayevi müəllim, yazıçı, tərcüməçi kimi oxuculara təqdim edir. Kitabda da göstərildiyi kimi, Mir Cəlal Paşayev elə bir dövrdə tərcüməçiliklə məşğul olmuşdur ki, həmin illərdə buna çox ehtiyac vardı. Bu tərcümələr bir də ona görə vacib idi ki, daxilində böyük bir dünya yaşadan vətəndaş M.C.Paşayev üstünlüyü yenə də öz xalqının ədəbiyyatına, mədəniyyətinə verir, oxucunu düşündürürdü. Rus ədəbiyyatı ilə Azərbaycan oxucusunu tanış edən M.C.Paşayevin hekayələri də rus dilinə tərcümə edilir. Bu işi isə XX əsr Azərbaycan mətbuat tarixində xüsusi xidmətləri olan Qurbanəli Şərifovun oğlu görkəmli alim, tərcüməçi Əziz Şərif yerinə yetirmişdi. Yaradıcılığında olan bəşəri ideyaların gündəmə gətirilməsi bu günün özündə belə onu hər kəsin müasirinə çevirir. Bu müasirliyi vaxtında duyan Ramiz Qasımov onun fəaliyyətini izlədikcə həyatını “Qarış-qarış gəzir”, oxucu üçün görünməyən, bilinməyən tərəfləri təhlil edir, onu Azərbaycan vətəndaşına bir daha sevdirir. Kitabda da qeyd olunduğu kimi, M.C.Paşayev həm də ədəbiyyatşünasdır. Onun ədəbiyyatşünaslığı ilk öncə Füzuli kimi bir şəxsiyyəti tədqiq etməsilə sübuta yetir. Niyə məhz Füzuli? Bir fıloloq kimi yazıçı bildirir ki: Füzulini hər kəs duya bilməz və tədqiq etməyi

bacarmaz. Füzulini duymaq üçün ən azından onun səviyyəsində, onun kimi sevməyi bacarmaq lazımdır, çünki onun sevgisi başabaş səmimiyyət və məhəbbətdən yoğrulmuş bəşəri ideyalar daşıyıcısıdır. "Sübhədək söz almazı ilə məna gövhərinin bağrını dəlməklə məşğul olan" Füzuli qəzəlləri onun tədqiqatında öz yüksək bədii ifadəsini tapır və oxucu nə vaxt Füzuli dünyasına düşdüyünü fərq edə bilmir. Ramiz Dənizin araşdırma və tədqiqatlarından gəldiyi qənaət M.C.Paşayevi ədəbiyyat fatehi hesab etməsidir. Tanrı ona istedadın ən gözəlini, zərifini, söz üzərində zərgər kimi işləmək bacarığını bəxş etmişdir. Filologiya elmləri doktoru, professor, böyük yazıçı Mir Cəlal Paşayev də söz, sənət mülkünün hökmdarıdır. Elə bir hökmdar ki, gələcək nəsillər onun yazdıqlarından və yaratdıqlarından zaman-zaman bəhrələnərək, xeyirxah məqsədli və məsləkli insanlar olacaqlar. Yazıçı öz fikirlərində bildirir ki, Mir Cəlal müəllimin müasirləri arasında qazandığı böyük nüfuz ədəbi mühitlə məhdudlaşmamış, ölkəmizin ictimai-siyasi həyatında göstərdiyi fəaliyyət, ictimai proseslərdə fəal və intensiv iştirakı geniş əks-səda doğurmuşdur. Böyük ideallarım təsdiqində fəallıq göstərmək, müasir ictimai-siyasi proseslərin hadisə və meyillərin dərin təhlilini vermək, xalqın, xüsusən də bilik verdiyi tələbələrin rifahı naminə mücadilə etmək Mir Cəlal müəllimin ictimai fəaliyyətinin mərkəzində dayanmışdır. Ali təhsil auditoriyalarında görkəmli pedaqoqun ciddi problemlər qaldıran çıxışları yüksək və mükəmməl ictimai təfəkkürə söykənmişdir. Dərin bilik, insan psixologiyasını duymaq, kövrələn insan qəlbini almağı bacaran, zəngin dünyagörüşü, geniş məlumat dairəsi və fəal həyat mövqeyindən qaynaqlanan nəzəri düşüncələri Mir Cəlal müəllimin ictimai xadim obrazını parlaq və yaddaqalan cizgilərlə zənginləşdirir, bütövləşdirir. İcmalın sonunda kitabxanaçı oxucuların kitab haqqında suallarını cavablandırır.

**Sual-cavab viktorinası**. İcmalla yanaşı oxucularımız üçün sual-cavab viktorinası da təşkil edə bilərik. Məsələn, Mir Cəlalın “Həkim Cinayətov”, “Müalicə”, “Badam ağacları”, “Ehtiram”, “Vətən köynəyi”, “Bostan oğrusu”, “Xahiş, tələb, məsləhət”, “Bir elçi kimi”, “Heykəl uçulanda”, “Leyla”, “Qəm qəmi gətirər, dəm dəmi!” və s. hekayələri haqqında oxuculara kitabxanaçı tərəfindən qısa məlumat verilə bilər. Daha sonra həmin məlumat əsasında *sual-cavab viktorinası* təşkil edə bilərik.

**Sual:** “Həkim Cinayətov” hekayəsində Ramazan nəyə görə həkimə əsəbləşdi?

**Cavab:** Ramazan Həkim Cinayətovun onun sözlərinə məhəl qoymamasına, laqeydliyinə görə əsəbləşdi.

**Sual:** “Bostan oğrusu” hekayəsində Kərbəlayi Tapdığın bostanından üzümləri kim oğurlayır?

**Cavab:** Kərbəlayi Tapdığın bostanından üzümləri qardaşı Durmuş kişi oğurlayır..

**Sual:** “Müalicə” hekayəsində həkim ananın azarını nə ilə izah edir?

**Cavab:** Həkim ananın kənddən gəldiyi üçün, öz həmsöhbətlərindən ayrı düşdüyü üçün şəhər həyatına və təkliyə öyrəşə bilmədiyi üçün ürəyi darıxdığını oğluna başa salır. Oğlu isə elə bilirdi ki, anası xəstələnib.

**Sual:** “Leyla” hekayəsində Leyla niyə hər gün kimsəsiz, quru çölə yollanırdı?

**Cavab:** Leyla həyat yoldaşını bu çöldən cəbhəyə yola salmışdı. O yoldaşını yenidən görmək ümidi ilə hər gün oraya gedirdi.

**Sual:** “Heykəl uçulanda” hekayəsində nədən danışılır?

**Cavab:** Bu hekayədə vəzifə başında olan bəzi məmurların pis əməlləri nəticəsində öz övladlarına da pis tərbiyə vermələrindən söhbət açılır. Nəticədə zərər çəkmiş həm özləri, həm də öz doğmaları olur.

**Sual:** “Ehtiram” hekayəsində nənənin qarşıladığı qonaqlar hardan gəlmişdilər?

**Cavab:** Qonaqlar Bakıdan, Ehtiramın oxuduğu ali məktəbdən gəlmişdilər.

**Sual:** Mir Cəlal Paşayev hekayələrini qələmə alarkən klassik nəsrimizdən hansı yazıçıların ədəbi irsindən yararlanmışdır?

**Cavab:** Mir Cəlal satirik hekayələrində klassik nəsrimizdən, Cəlil Məmmədquluzadənin, Ə.Haqverdiyevin ədəbi irsindən yaradıcı şəkildə istifadə etmişdir. Mir Cəlalın hekayələrindəki təhkiyə üsulu bəzən Ə.Haqverdiyevi xatırladır.

**Sual:** Mir Cəlal Paşayevin hansı kitabından tələbələr bu gün də dərslik kimi istifadə edirlər?

**Cavab:** XX əsr Azərbaycan ədəbiyyatı.

*Sual-cavab viktorinasının sonunda kitabxanaçı oxuculara diqqətli olmalarına və hazırcavablılıqlarına görə təşəkkürünü bildirir.*




**Biblioqrafik icmal.** *"Mir Cəlalın Aforizmləri"* – bu kitabda oxucular böyük yazıçı, alim və pedaqoq Mir Cəlalın bizə ədəbi miras qoyduğu, çətin anlarda köməyimizə çatan, qaranlıq yolumuzu işıqlandıran müdrik kəlamları ilə tanış ola bilərlər. Kitab filologiya fakültəsinin müəllim və tələbələri, aspirant və dissertantlar, ümumiyyətlə, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Müdriklərin fikrincə, "bəşəriyyətin ən böyük hikmətlərindən, insan şüurunun ən böyük kəşflərindən biri sözdür. Müqəddəs kitablar – söz, dövlətləri çiynində saxlayan qanunlar – söz, hikmət, fəzilət də sözdür. Dünyanın adı bilinən və bilinməyən hər ölkəsindən, tarixin hər dövründən süzülüb gələn işıq da sözdür". İnsan söz vasitəsilə keçmişlə, gələcəklə əlaqə saxlayır, öz düşüncə və duyğularını tarixin, zamanın yaddaşına yazır. Bədii söz sonu görünməyən bir okeandır ki, dil vasitələri bu okeanın içərisində üzür, söz sərrafları bədii əsərin mövzusu, obrazların canlılığı üçün həmin ifadə vasitələrindən uyğun olanını seçir, obrazlarını rəngləyir, təzahür imkanlarının obrazlılıq sistemini yaradırlar. Azərbaycan nəsrinin görkəmli simalarından Mir Cəlal əsl istedad sahibi olmuşdur. Əsl istedadlarda, dahilərdə isə hər şey sadə, saf və səmimidir. "Dahilər bəşəriyyətin sərlövhəsidir",– deyirlər. "Mir Cəlal XX əsr Azərbaycan nəsrinin, XX əsr Azərbaycan ədəbiyyatının sərlövhəsidir", – desək yanılmarıq. Çünki Mir Cəlal heç zaman özünü insanlardan yüksəkdə tutmamış, həmişə insanlarla bir yerdə, bir sırada olmuşdur.

**Konfrans.** Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə *"Mir Cəlal Paşayev yaradıcılığında Azərbaycançılıq"* mövzusunda konfrans da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın

keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Mir Cəlal Paşayevin yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

**1.** Giriş hissə (Mir Cəlal Paşayevin həyat və yaradıcılığı haqqında məruzə) ;

**2.** Mir Cəlal Paşayevin qələmə aldığı əsərləri haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və şairlərin çıxışları;

**3.** Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların "Mir Cəlal Paşayev yaradıcılığında Azərbaycançılıq" mövzusunda müzakirələri;

4. Yazıçının əsərlərindən bir neçə parçanın səhnələşdirilməsi;

**5.** Konfransın yekunu.

**I məruzəçi:** Yaradıcılığında vahid azərbaycançılıq ideyasını tərənnüm edən görkəmli ziyalılardan biri də XX əsr Azərbaycan elminin, ədəbiyyatının və təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş yazıçı, müəllim, ədəbiyyatşünas, tənqidçi, publisist Mir Cəlal Paşayev olub. Beşiyi Azərbaycanın güneyində, qəbri isə quzeyində olan bu böyük şəxsiyyətin həyatı və yaradıcılığı Azərbaycanın bütövlük simvolu sayılır. Məşhur Çin filosofu Konfutsi yazır ki, hər kəsin xarakteri onun taleyini müəyyən edir. Görkəmli yazıçı və alimin keçdiyi tale yolu bu mənada onun necə nəcib və xeyirxah şəxsiyyət olduğundan, vətəninə, xalqına mənəvi bağlılığından xəbər verir.

**II məruzəçi:** M.C.Paşayev yüksək poetik təfəkkür və bədii təxəyyülü ilə xalqımızın özünəməxsus keyfiyyətlərini, zəngin mənəvi aləmini çoxsaylı əsərlərində parlaq şəkildə təcəssüm etdirib. O, dəyərli hekayələri, məzmunlu roman və povestləri ilə oxucu auditoriyasına geniş yol tapıb. İctimai həyatın tipik

lövhələrini ədəbiyyata gətirən sənətkarın elmi yaradıcılığı kimi bədii yaradıcılığı da fəlsəfi estetik görüşlərdən, günün aktual problemlərindən bəhs edir. Yaradıcılığının mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı özünəməxsus yer tutur. Mir Cəlal ədəbiyyatşünas-alim, pedaqoq kimi də geniş aspektdə fəaliyyətini davam etdirib. Görkəmli yazıçı yaradıcılığının bir sahəsini digəri ilə mükəmməl şəkildə uzlaşdırıb.

**III məruzəçi:** Mir Cəlal Paşayevin ədəbi görüşləri, məntiqi fikirləri bədii yaradıcılığına ziyan gətirməyib, əksinə, sənətkarlıq xüsusiyyətlərinin daha da formalaşmasında yardımçı rol oynayıb. Təsadüfi deyil ki, ədəbiyatşünas alimlər Mir Cəlalı ədəbi prinsipinə, həyatı təsvir üsulu və metodlarına görə Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev kimi XX əsr realistlərinin davamçısı sayıblar. Şübhəsiz, o, hansısa ədəbi məktəbin prinsiplərini, metod və üsullarını kor-koranə təqlid edən yazıçılardan olmayıb. Xalqın ənənələrinə dövrünün yeni bədii təfəkkürü prizmasından baxaraq, onu zənginləşdirib. Məhz bu baxımdan yazıçı Mir Cəlalla Mirzə Cəlil və Haqverdiyev arasında sələf-xələf münasibətlərindən, ədəbi varislik ələqələrindən söz açılır.

**IV məruzəçi:** Professor M.C.Paşayevin ədəbi fəaliyyətinin birinci dövründə oçerk və hekayə janrı aparıcı mövqeyə malikdir. İlk qələm təcrübəsi sayılan bu əsərlərində ədib bir sıra ciddi mövzulara toxunub. Ötən əsrin əvvəllərində ümumilikdə regionda cərəyan edən siyasi proseslərin Azərbaycan həyatına təsirini, cəmiyyətdə yaşanan təlatümləri, xalqın başına gətirilən faciələri, ermənilərin milli zəmində törətdikləri qırğınları ədəbi nümunələrində əks etdirib. Eyni zamanda insanların gələcəyə inamını, Azərbaycan cəmiyyətini bütün çətinliklərin fövqünə yüksəldən ruh yüksəkliyini və mənəvi təmizliyini xeyirin şər üzərində qələbəsi kimi qələmə verib.

**V məruzəçi:** Xarakterlər ustası sayılan Mir Cəlalın bu özünəməxsus yaradıcı keyfiyyəti təkcə onun hekayələrində

qabarıq nəzərə çarpmır. Kürəyində istismarçıların qamçı izləri qaralan Salman dayı, 40 illik tərli və buxarlı əməyin qalib əsgəri olan Əhliman və Hüseyn kişi ("Sağlam yollarda"), gözlərinə qanlı keçmişin dəhşətləri köçmüş Həsən əmi ("Zavodun tərcümeyi-halı") kimi qocalar, avam kəndli Mehbalı kişi ("Oğul"), qara çadranın zülmətindən qurtularaq özünə yeni həyat yaradan Sara ("Sara") kimi obrazlar ədibin ilk oçerk və hekayələrinin qəhrəmanlarıdır. Yaradıcılığının birinci dövründə qələmə aldığı "Həkim Cinayətov", "Mirzə Şəfi", "Mərifət dərsi", "Möhlətovun tərcümeyi-halı", "Kağızlar aləmində", "Dostumun qonaqlığı", "Mərkəz adamı" və digər hekayələrində müəllif yeni həyatla ayaqlaşa bilməyən bir çox ziyalıları, cəmiyyətin tərəqqisinə mane olan köhnə əxlaqın qalıqlarını da tənqid atəşinə tutub. Ümumilikdə, 1930-40-cı illərdə işıq üzü görmüş "Bolşevik ədəbiyyatı kadrları", "Quruluş qəhrəmanlarımızın bədii ifadəsi uğrunda", "Gənc oxucuları təşkil edəlim", "Azad qadın ədəbiyyatda", "Böyük problemlər romanı", "Bədii dilimiz haqqında" və digər məqalələrində Mir Cəlalın həyat hadisələrinə müdaxiləsi, dövrünün, zəmanəsinin nəbzini tuta bilməsi, milli-mənəvi dəyərləri düzgün qiymətləndirməsi, gənc nəslə vətənpərvərlik ruhu aşılaması özünü aydın büruzə verir. Dövrün tələblərinə cavab verə bilən belə məqalələr Mir Cəlalın ədəbi, pedaqoji və ictimai hadisələrə yanaşma tərzinin düzgünlüyünü göstərir. Bu əsərlər ötən əsrin 30-40-cı illərində tənqid və ədəbiyyatşünaslığın inkişaf etməsində, buraxılan səhvlərdən təmizlənməsində böyük rol oynamış və indi də aktuallığını itirməyib.

**VI məruzəçi:** M.C.Paşayev Azərbaycan ədəbiyyatında roman janrına da yeni nəfəs gətirib. Bu sahədə özünəməxsus məktəb yaradıb. Məlumdur ki, 30-cu illərdə yaradıcı ziyalıların başı üstündə repressiya dalğası onları müəyyən buxova salır, azadlıqlarını məhdudlaşdırırdı. Nəticədə ciddi ədəbi mahiyyət kəsb etməyən, sırf ideoloji mahiyyət daşıyan boz məzmunlu "cızmaqaralar" ciddi əsərləri sayca qat-qat üstələyirdi. Sanballı

əsərlər məzmun cəhətdən böyük maraq kəsb etməyən əsərlər sırasından çox çətinliklə yüksək ədəbi zövqü olan oxucuların masası üstünə yol tapırdı. Bədii-estetik cəhətdən son dərəcə zəif, təsir bağışlayan, maraqsız, duyğusuz yazılmış əsərlər, həqiqi mənada mənalı, cəlbedici təfəkkür məhsullarını geridə qoymağa çalışırdı. Belə bir çətin şəraitdə roman janrına müraciət edən Mir Cəlalın qısa müddətdə böyük oxucu auditoriyası qazanması isə onun yüksək istedada malik qələm sahibi olmasından xəbər verirdi. Həmin dövrdə Mir Cəlalın "Vətən hekayələri", "Vətən yaraları" kimi əsərləri çapdan çıxıb.

**Müdiriyyət:** Ümumiyyətlə, M.C.Paşayev nədən yazırsa-yazsın, öz hekayələrində həyatın dərin qatlarına nüfuz etməyə, hadisələrin daxili mahiyyətini açmağa çalışıb. Görkəmli alim və pedaqoq, Əməkdar elm xadimi, filologiya elmləri doktoru olan Mir Cəlal yaradıcılığının bütün dövrlərində əbəbi fəaliyyətlə yanaşı, elm sahəsində də səmərəli fəaliyyət göstərib. Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı çapdan çıxan fundamental nəşrlərin hazırlanması prosesində yaxından iştirak edib. Məşhur yazıçı dövrünün ictimai proseslərinə də biganə qalmayıb. Cəmiyyətdə fəallığı ilə seçilib. Böyük idealların təsdiqində fəallıq göstərmək, müasir ictimai-siyasi proseslərin, hadisə və meyillərin dərin təhlilini vermək, xalqın, xüsusən də bilik verdiyi tələbələrin rifahı naminə mücadilə etmək Mir Cəlal müəllimin ictimai fəaliyyətinin mərkəzində dayanıb. Tələbələri onun ali təhsil auditoriyalarındakı dərin məzmunlu, emosional məruzələrini bu gün də ehtiramla xatırlayır. Dərin bilik, insan psixologiyasını duymaq, zəngin dünyagörüşü, geniş məlumat dairəsi və fəal həyat mövqeyindən qaynaqlanan nəzəri düşüncələri Mir Cəlalın ictimai xadim obrazını daha da zənginləşdirib, kamilləşdirib. M.C.Paşayevin yaşadığı şərəfli ömür nəcib Azərbaycan ziyalısının həyat hekayəsinə çevrilib. Görkəmli yazıçı-alim cismən həyatda olmasa da, onun zəngin yaradıcılığı, sanballı əsərləri daim yaddaşlarda yaşayır.




**Əsərlərin təhlili.** Kitabxanada Mir Cəlal Paşayevin yubileyi münasibətilə onun yaradıcılığını oxuculara daha yaxından tanıtmaq məqsədilə *"Əsrlərin romanı – nəsillərin manifesti"* başlığı altında yazıçının ən məhşur əsərləri olan *"Bir gəncin manifesti"*, *"Dirilən adam"* romanlarının təhlilini keçirmək məqsədəuyğundur. Bunun üçün kitabxanada yazıçıdan bəhs edən sərgi təşkil olunur. Oxucular sərgi ilə tanış olduqdan sonra, kitabxanaçı adı çəkilən əsərlərin təhlilini edir. Təhlilin sonunda kitabxanaçı oxucuların yazıçının yaradıcılığından bəhs edən suallarını cavablandırır.

**Kitabxanaçı:** Mir Cəlal Paşayev ömrünün sonunadək müxtəlif mövzularda kiçik və lakonik hekayələr yazan Mir Cəlal Azərbaycan ədəbiyyatında roman janrının inkişafında da özünəməxsus xidmətlər göstərib. "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır", "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər" adlı romanlarında hekayələrinə məxsus məziyyətlər öz əksini tapıb.

Yazıçının tədqiqatçıları bu fikirdədirlər ki, o öz romanlarında tarixi hadisələri realist boyalar, tipik obrazlar və canlı həyati lövhələr vasitəsilə verməyə çalışmış, beləliklə, hər zaman yazdığı əsərlərini oxucusuna sevdirə bilmişdir. Mir Cəlal Paşayevin 1939-cu ildə yazdığı "Bir gəncin manifesti" əsəri onun yaradıcılığının kulminasiyası, zirvəsidir! Roman həm məzmunu, ideyası, həm də bədii mükəmməlliyinə görə, yazıçının başqa əsərlərindən xeyli yüksəkdə dayanır. XX əsr Azərbaycan ədəbiyyatının şedevrləri sırasında qərar tutan bu roman Mir Cəlalın yaradıcılığında uzun illərdən bəri davam edən mütərəqqi ənənələrin xoş nəticəsidir. "Bir gəncin manifesti" romanına Azərbaycanda və yaxın-uzaq xaricdə yüksək şöhrət qazandıran amillərdən biri də Mir Cəlal Paşayevin

müəllif kimi son dərəcə səmimiliyi, insanlıq adına ləkə gətirən tüfeyli ünsürlərə güclü nifrəti, sadə, sıravi zəhmət adamlarına sonsuz sevgisidir. Sıravi insana bu məhəbbət ədibin xüsusilə Sona və balaca Bahar surətlərinə münasibətində özünün canlı ifadəsini tapmışdır. Əsərin qəhrəmanı qüvvətli, iradəli olduğu qədər də mübarizliyi ilə seçilən gənc Mərdandır. Ədib baş qəhrəmanını Mərdanın sarsılmaz anası Sona, ağıllı Bahar, igid Yaqub, dünyagörmüş Mövlam kişi, xeyirxah usta Rəhim və başqa bu kimi parlaq surətlərlə əhatə etmişdir. Burada xarakterlərin son dərəcə aydınlığı "Bir gəncin manifesti" romanının bədii dəyərini artıran ən əsas amillərdən biri kimi xüsusi qeyd edilməlidir. Romandakı xarakterlərin demək olar ki, hər biri fərdi xüsusiyyətlərə malikdir. İstər zəhmətkeş xalqı, istərsə də hakim təbəqəni təmsil edən adamların sinfi təbiəti əsərdə çox aydın və təsirli şəkildə, fərdi xüsusiyyətlərlə canlandırılmışdır. Bununla belə, "Bir gəncin manifesti” romanına birdən-birə ortaya çıxmış ədəbi hadisə kimi yanaşmaq o qədər də düzgün olmazdı. "Bir gəncin manifesti” əsərində yazıçının toxunduğu məsələlərin müəyyən təzahürləri ilə onun ilk hekayə və oçerklərində də qarşılaşırıq. Romandakı əsas tarixi-ictimai konflikt qismən "Dirilən adam”dakı tarixi-ictimai qarşıdurmanın davamıdır. Bu romanda da Azərbaycana qarşı xarici müdaxilə, vətəndaş müharibəsi, yadların ağalığı illərindən bəhs olunur. Bununla belə, "Dirilən adam” romanında boş qalan müəyyən məqamlar "Bir gəncin manifesti”ndə real həyat səhnələri ilə tamamlanaraq, canlı xarakterlərlə zənginləşdirilib. “Bir gəncin manifesti” romanına Azərbaycanda və yaxın-uzaq xaricdə yüksək şöhrət qazandıran amillərdən biri də yazıçının müəllif kimi son dərəcə səmimiliyi, insanlıq adına ləkə gətirən tüfeyli ünsürlərə güclü nifrəti, sadə, sıravi zəhmət adamlarına sonsuz sevgisidir. "Bir gəncin manifesti”ndən sonra Mir Cəlalın yaradıcılığında sosial mövzulara meyil güclənib. Faşizmə qarşı ikinci cahan savaşı isə Mir Cəlalın ədəbi-elmi fəaliyyətində geniş üfüqlər açıb. Böyük Vətən müharibəsində xalqımızın

göstərdiyi misilsiz qəhrəmanlıq, dözümlülük və qələbə əzmi Azərbaycan bədii nəsrinin başlıca mövzularından birinə çevrilib. İlk dəfə 1937-39-cu illərdə hissə-hissə “Revolyusiya və kultura” jurnalında nəşr olunan “Bir gəncin manifesti” əsəri isə yazıçının həyatında böyük bir dönüş yaradıb, ədəbi zirvəyə aparan yoluna cığır açıb və müəllifə böyük oxucu auditoriyası qazandırıb. 1940-cı ildə “Uşaqgəncnəşr”də kitab halında kütləvi tirajla buraxılan bu əsər oxucu tələbatına görə sonrakı illərdə də dəfələrlə çap edilib. “Bir gəncin manifesti” bu gün də qəlbləri riqqətə gətirir. Doqquz dəfə müxtəlif illərdə ayrıca kitab halında nəşr olunmuş “Bir gəncin manifesti” Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da sevilir.

"Bir gəncin manifesti"ndə Mir Cəlal Paşayev geniş xalq kütlələrinin mübarizə ruhunu düzgün təsvir etmiş, həyatı olduğu kimi göstərmişdir. Onun romanını ideya-bədii cəhətdən yüksək səviyyəyə qaldıran, bütün dövrlər üçün oxunaqlı edən ən əsas məziyyət də görünür, məhz elə budur.

Yazıçının yaradıcılığında sezilən müəllif səmimiyyətini Mir Cəlal haqqında fikirlər irəli sürən bütün tənqidçilər xüsusi vurğulamışlar. Ədib hələ on illər öncə mədəni qarətçilərin qazanmaq ehtirasına qarşı "İtə ataram yada satmaram" deyərək, "Yusif və Züleyxa" xalısını ingilisə satmaqdan imtina edən Sona ananın mətinliyini, əyilməzliyini göstərərək məlum süjet xəttini Azərbaycan xalqının mənəvi qələbəsi ilə tamamlamışdır.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Azərbaycan kitabının tanıdılması və dünyəviləşdirilməsi məqsədilə 2016-cı ildə başlanılmış “Azərbaycan Kitabının Dünyada Tanıdılması” (AKDT) layihəsi ilə əlaqədar seçmə Azərbaycan ədəbiyyatı nümunələrinin tərcüməsi, çapı və Türkiyədə yayılması işi davam etdirilir. Bu günlərdə layihə üzrə görkəmli yazıçı Mir Cəlal Paşayevin “Bir gəncin manifesti” romanının nəşri başa çatdırıb. Azərbaycan əsilli, şair-yazıçı Yurtseven Şenin türkcəyə çevirdiyi roman “Sevinç Fırat Zengin Yayıncılık” nəşriyyatında çap olunub. Mir Cəlalın ilk irihəcmli əsəri – “Dirilən adam”

romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunmuşdur. Hələ yarım əsr bundan əvvəl akademik Məmməd Arif yazmışdı ki, “Mir Cəlal “Dirilən adam”la diqqətli bir realist yazıçı olduğunu göstərmişdir”.

Mir Cəlal Paşayevin **"Dirilən adam”** romanı cəmiyyətdə böyük marağa, ictimai müzakirələrə səbəb olub. Bu əsərdə Azərbaycan xalqının mübarizə tarixinin yeni mərhələsi canlandırılıb. Romanda təsvir edilən şərait dövr üçün səciyyəvi ictimai hadisələrlə bağlı olduğundan, yazıçı eyni zamanda ötən əsrin əvvəllərində Azərbaycan kəndində və mərkəzdən uzaq şəhərlərdə hökm sürən ümumi vəziyyəti, ölkədəki siyasi özbaşınalığı, hərc-mərcliyi bədii boyalarla əks etdirib. Tarixi həqiqətə uyğun olaraq müəllif bu əsərdə iki əsas siyasi cəbhənin olduğunu təsvir edib. Müqəddəratını, istiqlaliyyətini öz əlinə almağa çalışan, sözün əsl mənasında taleyinin sahibi olmağa çalışan Azərbaycan xalqı və onların bu amalına qarşı dayansalar da, sonda xalq qüdrəti qarşısında məğlub olan qoluzorlu soyğunçular. "Dirilən adam” romanı ötən əsrin 30-cu illərinin əvvəllərində qələmə alınsa belə, əsərdə irəli sürülən ideyalar bu günümüz üçün də kifayət qədər aktualdır. Bu ideyalar bütün dövrlərdə öyrədir, tərbiyələndirir. İnsanları öz haqları, Vətənin milli mənafeləri uğrunda aktiv mübarizəyə səfərbər edir.

Bütün bu tədbirlərlə yanaşı, kitabxanada oxucular tərəfindən yaxşı qarşılanan və sevilən *ədəbi-bədii gecələrin* keçirilməsi vacibdir. Ədəbi-bədii gecə müxtəlif adlar altında keçirilə bilər. Məsələn: “Həmişə yaşar müqtədir yazıçımız”, “Görkəmli alim, istedadlı yazıçı”, “Əsrlərin romanı-nəsillərin manifesti”, “Mir Cəlal – 110”, “Müəllim haqqında söz”, “Ədibin nəsrinə məhəbbətlə” və s. başlıqlar altında verilə bilər. Belə yubiley tədbirlərinin keçirilməsi oxuculara yazıçının həyat və yaradıcılığı ilə tanış olmağa imkan verir, hekayə və povestlərə maraq oyadır. Həmçinin görkəmli yazıçımızın əziz xatirəsi yad olunur.

**Film nümayişi.** Kitabxanada Mir Cəlal Paşayevin yubileyi ilə əlaqədar *"Azərbaycan kinosunun tarixi xalqımızın salnaməsidir"* başlığı altında yubilyardan bəhs edən filmlərin nümayişi də məqsədəuyğundur. Onun əsərləri əsasında "Bir ailə" (1943), "Mətbuat fədaisi" (2007), "Üç zirvənin fatehi" (2008) filmləri çəkilmişdir. Kitabxanada "Bir ailə" filminin nümayişi keçirilə bilər. Filmin nümayişindən əvvəl kitabxanaçı iştirakçılara filmin çəkilişi, məzmunu haqqında qısa məlumat verir.



**Kitabxanaçı:** Filmin çəkilişi zamanı Milli Kitabxana ilə çox sıx əlaqə saxlanmış, Mir Cəlalın səs yazılarını, əlyazmalarını bir araya gətirmiş, oxucular və tədqiqatçılar üçün əlçatan etməyə çalışmışlar. Mir Cəlalın ssenari müəllifi olduğu "Bir ailə" filminin 75 illik yubileyidir. Bu yubiley çox əlamətdar bir dövrə düşür. Bu il biz görkəmli ədib, alim, istedadlı pedaqoq Mir Cəlal Paşayevin 110, böyük bəstəkar Qara Qarayevin 100, həmçinin Azərbaycan kinosunun 120 illik yubileylərini qeyd edirik. Bu tədbirlərlə bağlı Azərbaycan Respublikası Prezidenti İlham Əliyev müvafiq sərəncamlar imzalamışdır. Filmlərin taleyi insanların taleyinə bənzəyir. Hər bir yaradılan filmin üzərində zamanın izi qalır. Filmə yanaşarkən ona zamanın prizmasından baxmaq lazımdır. "Bir ailə" filmi də bu qəbildəndir. Film 2008-ci ildə akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə bərpa olunub. Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin köməyi ilə Rusiyadan gətirilmiş bu ekran əsəri hazırda Dövlət Film Fondunda saxlanılır. Filmin çəkilişləri çox çətin dövrdə, İkinci Dünya müharibəsi illərində aparılıb. O zaman sovet rejissorları Qriqori Aleksandrov və Aleksandr İvanov Bakıya gəlmişdilər. Bakı Kinostudiyasında üç film – "Xəzər dənizçiləri" sənədli filmi,

"Bir ailə" və "Sualtı qayıq T9" bədii filmləri çəkildi. Əfsuslar olsun ki, bu filmlərin ekranlara çıxmasına qadağa qoyuldu. Çünki bu filmlərdə Azərbaycan xalqının şücaəti, qəhrəmanlığı, Böyük Vətən müharibəsində qələbə qazanmaq naminə misilsiz xidmətləri tərənnüm olunurdu. Təbii ki, bu, Moskvada, Kremldə əyləşənlərin xoşuna gəlməmişdi. Ona görə də bu filmlərə qadağa qoyuldu. "Bir ailə"nin əsas qəhrəmanı Azərbaycan xalqıdır. Film çox cəsarətli ekran əsəridir. Bu filmdə heç bir şüar yoxdur. Filmin əsas qəhrəmanı Azərbaycan xalqı, onun fədakar övladlarıdır. Ekran əsərində çox maraqlı qadın surətləri də var. Onlar Azərbaycan qadınının vətənpərvərliyini, gücünü əks etdirir. Filmin bütün dramaturji quruluşu və bədii təsviri Mir Cəlal Paşayevin rəhbərliyi altında həyata keçirilib. Bu filmdə ilk dəfə Azərbaycan kinosunda kinosimfonizmdən istifadə olunub. Burada musiqi ilə təsvirin vəhdəti tamaşaçını heyran qoyur.

Sənət ölməzdir. Azərbaycan kinosunun uğuru olan bu filmin yenidən bərpa olunması və ekranlara çıxması sənətin ölməzliyinin təsdiqidir. 1943-cü ildə Bakı Kinostudiyası tərəfindən çəkilmiş bu film İkinci Dünya müharibəsində faşizm üzərində qazanılan qələbədə Azərbaycan neftinin rolundan və xalqımızın vətənpərvərliyindən bəhs edir. Filmin ssenari müəllifi Mir Cəlal Paşayev, bəstəkarı Qara Qarayev, rejissorları Rza Təhmasib, Mikayıl Məmmədov və Qriqori Aleksandrovdur. Rollarda Xosrov Məlikov, Mərziyyə Davudova, Lyubov Orlova, Hökümə Qurbanova, Mirzə Babayev və digərləri çəkiliblər. Film bəstəkar Qara Qarayevin kinoda ilk işidir.

Sovet arxivlərindən tapılan sənəddə filmə qadağa qoyulması ilə bağlı yazılıb: "Bir ailə" kinofilmində Böyük Vətən müharibəsi və həmin müharibədə Kommunist Partiyasının rolu kifayət qədər əks olunmayıb..." Səbəb aydındır: Mir Cəlal Paşayev öz ssenarisində göstərirdi ki, müharibənin bütün yükü sadə xalqın üzərinə düşür. O, öz çörək payını da müxtəlif millətlərin Bakıya təxliyə edilmiş nümayəndələri ilə bölüşən Azərbaycan xalqının qonaqpərvərliyindən, fədakarlığından bəhs

edirdi. Amma ssenaridə partiya fəallarının mənəviyyat moizələrinə, nitqlərinə yer verilməmişdi... Məsələnin kökündə həm də Azərbaycana qarşı müstəmləkəçi və qısqanc baxış dayanırdı. Elə Bakıya Qəhrəman şəhər adı verilməməsinin də səbəbi bu idi...

"Bir ailə" filmi naməlum şedevrdir. Bu, Azərbaycan kinosunda ilk filmdir ki, müstəqilliyin ab-havası duyulur. Bu da Mir Cəlal Paşayevin ssenarisi əsasında reallaşıb. "Bir ailə" Azərbaycanın son dərəcə ləyaqətli övladlarının İkinci Dünya müharibəsində əvəzsiz rolundan bəhs edən filmdir. Bu gün bu filmin üzə çıxması çox əhəmiyyətlidir. Film vahid süjet xətti ilə bir-birinə bağlı olan üç novelladan ibarətdir. Ekran əsərinin süjeti cəbhədə olan azərbaycanlı tankçı Nəcəfin birgünlük məzuniyyət zamanı aşiq olduğu Katya adlı rus qıza məhəbbəti ətrafında qurulub. Belə ki, əsgər yoldaşı yaxınlıqdakı şəhərdə tanış-bilişi olmayan Nəcəfə öz ev ünvanını verir. Nəcəf isə ünvanı səhv salır, başqa ailənin qapısını döyür. Ailə onun səhv gəldiyini bilsə də, üzünə vurmur, mehribanlıqla qarşılayır. Bir gündə Nəcəflə ailənin qızı Katya arasında sevgi bağı yaranır. Katya rolunu Lyubov Orlova, Nəcəf rolunu isə görkəmli aktyor Xosrov Məlikov ifa edib. Sonda filmin nümayişi olur.

**Ədəbi-bədii gecə.** Mir Cəlal Paşayevin irsinin təbliği üçün ədəbi-bədii gecələrin keçirilməsi zəruridir. Gecəni *"Söz sənətkarlığı zirvəsinin fatehi"* başlığı ilə adlandırmaq olar. Tədbirin ssenarisini sizə təqdim edirik. Səhnə yazıçının portreti, əsərlərini əks etdirən şəkillər ilə bəzədilir. Səhnənin bir tərəfində Mir Cəlal Paşayevin əsərlərindən ibarət sərgi təşkil olunur. Sərgi yazıçı haqqında yazılmış sitatlarla bəzədilir. Tədbir kitabxana rəhbərliyi tərəfindən açıq elan olunur. Gecəyə Mir Cəlal Paşayevin yaradıcılığına yaxından bələd olan tanınmış yazıçılar, tənqidçilər, jurnalistlər dəvət olunur.

**I aparıcı:** Hörmətli qonaqlar, əziz dostlar, bildiyimiz kimi bu il sənət və ədəbiyyat aləmində sevilən Mir Cəlal Paşayevin 110

illik yubileyi qeyd olunur. Bu münasibətlə kitabxanamızda təşkil olunmuş xatirə gecəsində hamınızı xoş gördük.
**II aparıcı:** Hər bir şəxsiyyətin kamillik səviyyəsi onun qarşıya qoyduğu nəcib amal və məqsədlərdə, ülvi niyyətlərdə ifadə olunur. Belə seçilmiş insanların dərk edilmiş məsuliyyətə əsaslanan əməli fəaliyyətləri onların mənalı həyat yolunu, cəmiyyətdəki layiqli mövqeyini, ictimai statusunu müəyyənləşdirməklə yanaşı, həm də yaradıcı imkanlarını genişləndirir. Ziyalı adına layiq belə insanlar yüksək poetik təfəkkür və bədii təxəyyülləri ilə xalqımızın özünəməxsus keyfiyyətlərini, zəngin mənəvi aləmini çoxsaylı əsərlərində parlaq şəkildə təcəssüm etdirirlər.
**I aparıcı:** Belə nəcib şəxsiyyətlər təkcə Azərbaycanda deyil, respublikamızın hüdudlarından kənarda da xalqımızı layiqincə təmsil etmiş, təhsilimizin, elmimizin, ədəbiyyatımızın, mədəniyyətimizin etibarlı hamisi, alovlu təbliğatçısı kimi çətin missiya daşımışlar. 2008-ci ildə 100 illik yubileyi BMT-nin ali mədəniyyət qurumu-UNESCO səviyyəsində qeyd olunan görkəmli ədəbiyyatşünas alim, pedaqoq və nasir Mir Cəlal Paşayev də məhz belə ziyalılardan biri olaraq Azərbaycanın adını yüksəkliyə qaldırmış, tariximizdə əbədiyaşarlığını təmin etmişdir.
**II aparıcı:** Ədəbiyyat tariximizdə hekayə, povest və romanları ilə layiqli yer tutanlardan biri də unudulmaz yazıçı və pedaqoq-alim Mir Cəlal Paşayevdir. Azərbaycan ədəbiyyatının ideya-məzmun və bədii-estetik cəhətdən inkişaf edib zənginləşməsində görkəmli söz ustadı Mir Cəlal (1908-1978) yaradıcılığının istisnasız və özünəməxsus yeri var.
XX əsrin 30-cu illərindən sonra Azərbaycan nəsrinin bədii istiqamətini təyin etməkdə Mir Cəlal yaradıcılığı çox mühüm rol oynayıb. O, XX əsr Azərbaycan ədəbiyyatının bünövrəsini qoyanlardan sayılır. Mir Cəlal ədəbi aləmdə atdığı ilk addımlarından sənətin şöhrət zirvəsinə qədər keçdiyi çətin və şərəfli ömrünün 50 ili ərzində zəngin ədəbi irs yaratmışdır.

Mənəviyyatındakı saflıq, təmizlik, halallıq, toxluq həyatda, elmdə, yaradıcılıqda, pedaqoji fəaliyyətdə və insanlara münasibətdə həmişə Mir Cəlal müəllimin ən etibarlı yol yoldaşı idi. Biz Mir Cəlalı orta məktəb illərində yazıçı kimi tanıyırıqsa, sonrakı illər o, böyük ədəbiyyatşünas alim, nüfuzlu pedaqoq kimi nəzərlərimizdə böyüyür.

**I aparıcı:** Vətəninə, xalqına bağlı olan yazıçının ədəbi irsi bütün dövrlər üçün aktualdır. Bütün bunlar təsdiq edir ki, Mir Cəlal zəngin miraslı yaradıcı şəxsiyyət kimi milli ədəbiyyatmız, elm və mədəniyyətimiz tarixində yaşamağa layiqdir. Xalqına xidmət idealına arxalanaraq təbiətinə uyğun sadəlik və təmkinlə işlədi, yazıb yaratdı və xatirələrdə əbədiləşdi. Milli ədəbiyyatşünaslıq elminin nəzəri əsaslarını yaratmış görkəmli alimlərdən olan Mir Cəlal sənətin şöhrətli zirvəsinə qədər keçdiyi çətin və şərəfli ömür yolunun əlli ili ərzində zəngin ədəbi irs yaratmışdır. Qüdrətli söz ustası bütün şüurlu həyatını ədəbi, elmi və ictimai-pedaqoji fəaliyyətə həsr etmiş, ölməz nəsr əsərləri, elmi dəyərini itirməyən monoqrafiyalar yaratmış, yeni ədəbiyyatşünas və pedaqoji kadrlar yetişdirmiş, doğma xalqın milli-mənəvi yüksəlişinə çalışmışdır.

**II aparıcı:** Ədibin roman və hekayələrini vərəqlədikcə onun güclü məntiqinin, bənzərsiz mühakiməsinin şahidi olursan və belə qənaətə gəlirsən ki, ədəbi-ictimai, bədii yaradıcılığının ən mühüm nəzəri və əməli məsələlərinə həssas münasibət, ictimai həyatda göstərdiyi alicənablıq onun müstəsna həyati təcrübəsindən bəhrələnmiş, müxtəlif məsələlər ətrafında ciddi, prinsipial mübahisələrdəki obyektiv mövqeyi isə dərin, aludəli, ictimai təhlil vermək bacarığından irəli gəlir. Digər tərəfdən o da aydın şəkildə özünü büruzə verir ki, pedaqoji fəaliyyəti ilk əvvəl Mir Cəlal müəllimin humanist potensialını, mənəvi dəyərlərini, siyasi əqidəsini üzə çıxarır, bu məziyyətlər yüksək əxlaqi dəyərlər kimi açıqlanır.

**I aparıcı:** Mir Cəlal yaradıcılığının mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı ilə Azərbaycan yazıçıları

içərisində özünəməxsus yer tutur. O, ədəbiyyat tariximizdə gözəl hekayələr ustası, rəngarəng mövzulara həsr olunmuş romanlar yaradıcısı, ədəbiyyatımızın klassik və müasir dövrünü, müxtəlif problemlərini işıqlandıran onlarla dəyərli tədqiqat əsərinin müəllifi kimi tanınır. Mir Cəlal ədəbiyyat tarixinə, tənqid və ədəbiyyatşünaslığa dair bir sıra qiymətli əsərin müəllifidir. O, ədəbiyyatşünas alim, pedaqoq kimi də geniş aspektdə fəaliyyətini davam etdirmiş, yaradıcılığının bir sahəsini digəri ilə mükəmməl şəkildə uzlaşdıra bilmişdir.

**II aparıcı:** Görkəmli yazıçı və alimin keçdiyi tale yolu bu mənada onun necə nəcib və xeyirxah şəxsiyyət olduğundan, vətəninə, xalqına mənəvi bağlılığından xəbər verir. Mir Cəlal dissertasiyasında Azərbaycan ədəbiyyatında öz yeri olan dahi Füzulinin yaradıcılığı haqqında ədəbiyyatşünas alim kimi yüksək fikirlər söyləmiş, klassik şeir ustadının sənətkarlığını təhlil etmək, daha dərindən araşdırmaq kimi çətin vəzifənin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir. Onun "Füzulinin poetik xüsusiyyətləri" mövzusunda monoqrafiyası bu gün də füzulişünaslığı davam etdirən gənclər üçün bir proqram sayıla bilər. Füzulişünas akademik Həmid Araslı və professor M.Quluzadə Mir Cəlalın bu əsərini yüksək qiymətləndirərək onun Füzuli sənətkarlığının tədqiqində sanballı mənbə olduğunu bildirmişlər.

**I aparıcı:** Faşizmə qarşı ikinci cahan savaşı Mir Cəlalın ədəbi-elmi fəaliyyətində geniş üfüqlər açmışdır. Müharibənin əvvəllərində Uzaq Şərqdəki ordu hissələrinə gedərək döyüşən ordunun həyatı ilə yaxından tanış olan ədibin çoxsaylı oçerk, hekayə və publisistik yazıları oxucular tərəfindən maraqla izlənirdi. Böyük Vətən müharibəsində xalqımızın göstərdiyi misilsiz qəhrəmanlıq, dözümlülük və qələbə əzmi Azərbaycan bədii nəsrinin başlıca mövzularından birinə çevrilmişdi.

**II aparıcı:** Yazıçı həyat hadisələrinə fəal münasibət bəsləyir, qələmə aldığı mövzunu aydın yazıçı mövqeyi və estetik ideal baxımdan işləyirdi. O, bütün bacarığı və istedadının gücü ilə

sülh, asayiş, dinc, xoşbəxt həyat uğrunda mübarizə aparırdı. Onun beynəlxalq mövzuda yazdığı "Çin qızı", "Sülh istəyənlərə", "Badam ağacları", "Ərəb qızı" və başqa hekayələrdə sülh, əmin-amanlıq, humanizm, yer üzündə insanların dinc, məsud yaşaması ideyası təbliğ olunur.

**I aparıcı:** Alim-yazıçı böyük söz sahibləri Nizami, Füzuli, Sabir, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Səməd Vurğun kimi ədəbiyyatımızın görkəmli nümayəndələri ilə yanaşı, Lev Tolstoy, Maksim Qorki, M.Şoloxov, Anton Çexov kimi böyük söz ustaları haqqında da qiymətli elmi əsərlər, məqalələr yazmışdır. O, ədəbi yaradıcılıqla yanaşı, tərcümə sahəsində də müəyyən uğurlar qazanmışdır.

**II aparıcı:** Xalqa bağışlanan ölməz əsərlər Azərbaycan ədəbiyyatında Mir Cəlal müəllimin yaratdığı roman və hekayələr həyati əsərlər olsa da, sənətkarlıq baxımından yüksək səviyyədə duran orijinal, yetkin əsərlərdir. Süjet xəttini təbii inkişaf etdirməkdə, hadisələrin bir-birilə qırılmaz bağlılığı və kulminasiya nöqtəsinə çatdırılmasında, gözlənilməz final səhnələrinin yaradılmasında o, parlaq istedadını nümayiş etdirmişdir. Millət üçün faydalı və oxucuların zövqləri üçün rəğbətli əsər dram və roman olduğundan Mir Cəlal müəllim həmin janrlara xüsusi diqqət yetirərdi. Onun əsərləri özünün bədii təfəkkürünün məhsulu olub həyat hadisələrində insanın tutduğu mövqenin ədalətə, xeyirxahlığa, cəmiyyətin bəlalardan mühafizə etməyə çağırış olduğunu təlqin edir.

**I aparıcı:** Dərin bilik, insan psixologiyasını duymaq, zəngin dünyagörüşü, geniş məlumat dairəsi və fəal həyat mövqeyindən qaynaqlanan nəzəri düşüncələri Mir Cəlal müəllimin ictimai xadim obrazını daha da zənginləşdirir, kamilləşdirir. Mir Cəlal Paşayevin mühüm həyati problemlər qaldıran, vacib ictimai-siyasi və mənəvi-əxlaqi məsələləri əks etdirən realist əsərlərində əsas tədqiqat obyekti insanın mənəvi dünyasıdır. O, tərbiyə-əxlaq probleminə dair elə mövzular seçib, elə hadisə

və surətlər qələmə alıb ki, onlar oxucunu düşündürür, mənəviyyatca saflaşdırır, düzgün istiqamətləndirir. Bu mənada görkəmli yazıçının əsərləri bir neçə nəslin tərbiyəsində, maariflənməsində və dünya baxışının formalaşmasında mühüm rol oynayıb.

**II aparıcı:** Professor Mir Cəlal Paşayevin ali idealları bu gün həm də onun layiqli davamçılarının, habelə mənəvi övladlarının əməllərində həyat gerçəkliklərinə çevrilir, xeyirxahlıq və insanpərvərlik yoluna cığır açır. Universitet auditoriyalarından həyatın qoynuna onun xeyir-duası ilə atılmış çoxsaylı yetirmələri, əlindən tutub elmə gətirdiyi və bu gün hər biri Azərbaycan mədəniyyətinin görkəmli simaları kimi cəmiyyətdə yüksək mövqe sahiblərinə çevrilmiş yüzlərlə insan üçün Mir Cəlal Paşayevin yaşadığı şərəfli ömür əsl insana xas ən gözəl xüsusiyyətləri şəxsində uzlaşdırmağa müvəffəq olmuş alicənab, nəcib, xeyirxah Azərbaycan ziyalısının həyat hekayəsidir. Mir Cəlal Paşayev klassik Azərbaycan ədəbiyyatının mükəmməl və bacarıqlı tədqiqatçılarından biri idi. Unudulmaz alimin vaxtilə professor Firidun Hüseynovla birgə yazdığı "Azərbaycan ədəbiyyatı tarixi" kitabı 2000-ci ildə İstanbulda çap edilmişdir. Türkiyəli oxucular bu kitab vasitəsilə Azərbaycan ədəbiyyatının tarixini mükəmməl öyrənmək imkanı qazanıblar. Vaxtilə ürəklərdə yandırdığı çıraq yenə də eyni şövqlə alovlanmaqdadır. Həqiqətən də el məhəbbəti qazanan insanlar heç vaxt unudulmurlar. Yaşanan illərin ucalığında biz onu həmişə zirvələrdə görürük. Cismən həyatda olmayan böyük yazıçı və alim məhz zəngin yaradıcılığı – sanballı əsərləri, qədirbilən yetirmələri ilə daim yaddaşlarda yaşayır. İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, onun həm də xeyirxahlığı, bəşəri insanlığı heyranlıqla qarşılanır və əsl örnək

kimi sevilə-sevilə qəlblərdə özünə ucalıq, əlçatmazlıq heykəli qurur. Bu zirvənin yeri daim öz ucalığını itirməyəcək və onun mərhəmət sevgisi heç vaxt azalmayacaqdır.

*... Hər xalçanın ərzi gəzən sədasında*
*Alqışlayıb sonaların kamalını,*
*Sən diriltdin Mir Cəlalın nidasında*
*"İtə atar, yada satmaz!" amalını.*
*Tüğyanların ümman-ümman, Azərbaycan!*
*Dünya bir yan, sən bir yansan, Azərbaycan!*

Ədəbi-bədii gecənin sonunda görkəmli yazıçımız, Əməkdar elm xadimi, professor Mir Cəlal Paşayevin 1930-cu illərdə qələmə aldığı **"Kəmtərovlar ailəsi"** hekayəsi əsasında ekranlaşdırılan **"İki Yad Adam"** filmi nümayiş olunur. Film "Addım" Gənclər Təşkilatının sifarişi ilə Caspian Media Group tərəfindən ərsəyə gətirilmişdir. Filmdə fərqli iş həyatı və karyerası olan gənc Azərbaycan ailəsindən bəhs edilir. Kitabxanada yubileylə bağlı Nizami Kino Mərkəzi və "Ədibin Evi"nin təşkilatçılığı ilə Mir Cəlal Paşayevin 110 illik və Qara Qarayevin 100 illik yubileyləri münasibətilə Azərbaycan mədəniyyətinin bu görkəmli xadimlərinin birgə ərsəyə gətirdiyi "Bir ailə" bədii filminin də nümayişi məqsədəuyğundur.

## Əlavə

### Mir Cəlal Paşayevin həyat və yaradıcılığının əsas tarixləri

| | |
|---|---|
| 1908 | Mir Cəlal Əli oğlu Paşayev aprel ayının 26-da Cənubi Azərbaycanın Əndəbil kəndində anadan olmuşdur. |
| 1924 | Gəncə Darülmüəlliminə daxil olmuşdur. |
| 1926-1927 | Gəncə Darülmüəlliminda Tələbə Həmkarlar Təşkilatının sədri işləmişdir. |
| 1928 | Darülmüəllimi bitirib, Gədəbəy yeddiillik məktəbində direktor vəzifəsində çalışmışdır. |
| 1929-1930 | 1№-li Gəncə şəhər məktəbində direktor vəzifəsində işləmişdir. |
| 1930 | Qazan Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsinə daxil olmuşdur. |
| 1932 | Azərbaycan Dövlət Elmi - Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuşdur. “Kommunist”, “Gənc İşçi” qəzetlərində işləmiş, “Sağlam yollarda” adlı ilk kitabı çapdan çıxmışdır. |
| 1933 | SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin İctimai elmlər bölməsində kiçik elmi işçi vəzifəsində çalışmışdır. |

| | |
|---|---|
| 1936-1941 | APİ-də və ADU-da müəllimlik etmişdir. |
| 1940 | “Füzulinin poetik xüsusiyyətləri” adlı əsərini müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır, Moskvada keçirilmiş Azərbaycan Ədəbiyyatı dekadasının iştirakçısı olmuşdur. |
| 1944 | Sovet İttifaqı Kommunist Partiyasının sıralarına daxil olmuşdur. SSRİ Elmlər Akademiyasının 220 illiyi ilə əlaqədar olaraq “Əmək igidliyinə görə” və “Qafqazın müdafiəsinə görə” medalları ilə təltif edilmişdir. |
| 1944-1960 | SSRİ EA Azərbaycan filialının Ədəbiyyat və Dil İnstitutunun Sovet Ədəbiyyatı şöbəsinin müdiri və ADU-nun Azərbaycan Ədəbiyyatı kafedrasında dosent vəzifəsində işləmişdir. |
| 1946 | “1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyinə görə” medalı ilə təltif edilmişdir. |
| 1947 | “Azərbaycanda ədəbi məktəblər” əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır. |
| 1948 | Azərbaycan Dövlət Universitetində professor vəzifəsinə seçilmişdir. |

| | |
|---|---|
| 1954 | SSRİ Yazıçılarının II qurultayında nümayəndə kimi iştirak etmişdir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. |
| 1958 | Anadan olmasının 50 illiyi ilə əlaqədar olaraq "Şərəf nişanı" ordeni və "Qabaqcıl maarif xadimi" nişanı ilə təltif edilmişdir. |
| 1959 | SSRİ Yazıçılarının III qurultayında nümayəndə kimi iştirak etmişdir. Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlüyünün iştirakçısı olmuşdur. |
| 1960 | "Əmək igidliyinə görə" medalı ilə təltif edilmişdir. Bir qrup sovet alimi ilə birlikdə Fransa səfərində olmuşdur. |
| 1967 | "Qırmızı Əmək bayrağı ordeni ilə təltif olunmuşdur. SSRİ Yazıçılarının IV qurultayında iştirak etmişdir. |
| 1968 | "Bir gəncin manifesti" əsəri Respublika mükafatına layiq görülmüşdür. |
| 1969 | Azərbaycanın "Əməkdar elm xadimi adına layiq görülmüşdür. |
| 1978 | "Oktyabr İnqilabı" ordeni ilə təltif edilmişdir. 28 sentyabr 1978-ci ildə vəfat etmişdir. |

## Ədəbiyyat siyahısı


### *Əsərləri*

### *Kitablar*

Seçilmiş əsərləri : 3 cilddə. I cild. - Bakı : Çaşıoğlu, 2008. - 443 s. - (qutuda).

Seçilmiş əsərləri : 3 cilddə. II cild : Bir gəncin manifesti. - Bakı : Çaşıoğlu, 2008. - 467 s. : il., portr. . - (qutuda).

Seçilmiş əsərləri : 3 cilddə. III cild. - Bakı : Çaşıoğlu, 2008. - 455 s. : il., portr. - (qutuda).

Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2005. - 384 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Bir gəncin manitesti. - Bakı : Kitab klubu, 2016. - 264 s.

### *Kitablarda*

Gülgəz ; Aqil : hekayələr // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. - Bakı : Öndər, 2005. - C.3. - S. 191-204.

Mənim də haqqım var : hekayə // Külək qarı səpələr... : Azərbaycan yazıçılarının müharibəyə həsr olunmuş əsərləri. - Bakı : "Poeziya günü" Nəşrlər Evi, 2010. – S. 193-199.

### *Elektron resurslar*

Seçilmiş əsərləri [Elektron resurs]. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : il. ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

Seçilmiş əsərləri [Elektron resurs]. - Elektron mətn. I hissə : Dirilən adam. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : çoxrəngli ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

Seçilmiş əsərləri [Elektron resurs]. - Elektron mətn. II hissə : Bir gəncin manifesti. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : çoxrəngli ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

Seçilmiş əsərləri [Elektron resurs]. - Elektron mətn. III hissə : Yolumuz hayanadır. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : birrəngli : rəngli portr., il. ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

### *Uşaqlar üçün yazdığı və işlədiyi əsərlər*

**Nizami Gəncəvi.** Fitnə / uşaqlar üçün işl. Mir Cəlal. - Bakı : Təhsil, 2009. - 10 s. : rəngli şək. - (Məktəb kitabxanası).

**Nizami Gəncəvi.** İlin fəsilləri : Kiçik yaşlı məktəblilər üçün. - Bakı : Bərpanəşr, 2016. - 12 s. : rəngli il.

**Nizami Gəncəvi.** Xeyir və Şər. - Bakı : Bərpanəşr, 2016. - 20 s.

**Nizami Gencevi.** Fitne / N. Gencevi ; trans. from azer. K. Iskenderova ; ill. O. Sadizade ; adapted for the child. Mir Jalal. - Bakı : Təhsil, 2010. - 16 p. : colour ill. - (School Library) – ingilis dilində.

Yuxu və külək. - Bakı : Bərpanəşr, 1956. - 12 s. : il.

### *Dövri mətbuatda*

Anamın vəsiyyəti ; Dənizin cinayəti : şeirlər // Yada düşdü. - 2011. - № 1. - S. 12.

Ədəb söhbəti : hekayə // Savalan. - 2014. - 2-8 sentyabr. - № 65/66. - S. 3.

Gəncliyin qədrini bilək // Ədəbiyyat qəzeti. - 2012. - 28 aprel. - № 15. - S. 2. - Məqalə ilk dəfə "Ədəbiyyat və incəsənət" qəzetinin 19 sentyabr 1964-cü il tarixli nömrəsində dərc olunmuşdur.

***Haqqında***

***Kitablar***

**Dəniz R.** Qəlblərdə yaşayan Mir Cəlal. - Bakı : Yurd, 2008. - 160 s.

**Əhmədov T.** Mir Cəlal: Həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyəti : 2 cilddə. I cild : Ədəbi - nəzəri düşüncələr. - Bakı : Nurlar, 2014. - 348 s. : (qovl.).

**Əhmədov T.** Mir Cəlal: Ömrün mənalı anları : 2 cilddə. II cild : Fotosənədlər, əlyazmalar, epistolyar irs. - Bakı : Nurlan, 2014. - 380 s. : rəngli il.

**Əlimirzəyev X.** Mənəvi borc : Mir Cəlal haqqında xatirələr. - Bakı : Nurlan, 2006. - 192 s.

**Gülgün R.** Göylər adamı : Yazıçı, alim, pedaqoq Mir Cəlal haqqında esse-araşdırma. Yeni yozum. - Bakı : Kür-Araz nəşriyyat Evi, 2008. - 244 s. - (Silinməz izlər).

**Hidayət.** Mir Cəlal dünyasından sətirlər : esse = Вехи мира Мир Джалала : эссе. - Bakı : Əbilov, Zeynalov və oğulları nəşriyyatı, 2006. - 84 s. : rəngli foto ;. - Книга-перевертыш.

**İsmayılov Y.** Mir Cəlalın yaradıcılığı : monoqrafiya. - Bakı : Elm, 2010. - 292 s.

Mir Cəlal : Müasirlərinin xatirələrində və yaradıcılığından örnəklər : Azərbaycan Ensiklopediyası NPB, 1998. - 147 s.

**Muğanna S.** Həyat hekayələri, yaxud insan qəlbinin dialektikası. - Bakı : Mütərcim, 2008. - 72 s.

**Pənah G.** Mir Cəlalın elmi-nəzəri görüşləri : monoqrafiya. - Bakı : "Poeziya günü" Nəşrlər Evi, 2009. - 526 s.

*İngilis dilində*

**Hidayat.** Lines from the Realm of Mir Jalal = Les pages de l'unuvers de Mir Djalal. - Baku : Apostrof, 2010. - 45 p. ; 27 sm. - на англ. и франц. языках. - Книга-перевертыш. - (in card ).

**Mir Jalal** : Writer/literary critic, 1908-1978. - Baku : "Khan" Publishing House, 2015. - 36 p. : pic., col. pic. - Baku 2015 1st European Games.

*Kitablarda*

**Əlioğlu M.** Bir gəncin manifesti : Mir Cəlalın eyniadlı povesti haqqında // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1.- S. 185-195.

**Əhmədov B.** Mir Cəlal // XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə : dərslik. - Bakı : Apostrof, 2010. - C. 2. - S. 274-280.

**Hacızadə N.** Ürəyinə ürək çatmazdı : Mir Cəlal haqqında // Yada düşdü. - Bakı : Araz, 2008. - S. 65-97.

**Həsənzadə N.** Mir Cəlal heyy... : şeir // Seçilmiş əsərləri. - 2004. - S. 89.

**Mir Cəlal (1908-1978)** // Müasir Azərbaycan ədəbiyyatı : dərslik. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. – C. 1. - S. 287-296.

**Muğanna İ.** Mir Cəlal : Yubiley məktubu // Seçilmiş əsərləri. 6 cilddə. - Bakı : Avrasiya Press, 2009. – C.2. - S. 420-423.

**Namazov Q.** Mir Cəlal (1908-1978) // Azərbaycan uşaq ədəbiyyatı. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. - S. 248-254.

**Söz sənətkarlığı zirvəsinin fatehi**
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 27
Çapa imzalanmışdır: 02.04.2018
Tirajı:100
Pulsuz